# Lecture 11

## A. Hellenistik dövr fəlsəfəsi haqqında

Hellenistik dövr Makedoniyalı İskəndərin ölümü (-323) və Oktavianus`un Antonius`u məğlub etdiyi Aktium savaşı (-31) arasında uzanan dövrə verilən addır (Avropa tarixçiliyi tərəfindən). Bu dövrdən sonra gələn və 5-ci əsrin sonlarına doğru uzanan dövr isə Roma dövrü adlandırır. Bu dövr Şərqdən gələn dini görüşlərin güclənməsi, fəlsəfənin dini çalarlar alması ilə müşayiət olunurdu. Nəticədə yunan fəlsəfəsi xristianlığa təslim oldu deyə bilərik. Xristianlıq Şərqdən gəlib Qərbi fəth etdi. Hellenistik dövr əsasən Pelopennes yarımadası və Kiçik Asiyanın Ege sahillərində məskunlaşmış olan yunanların yaratdığı Hellenik (Klassik Yunan) dövründən sonra başlandı və yunan mədəniyyətinin Şərqə, qədim mədəniyyətlər dünyasına yayılması, daha dünyəvi şəkil alması ilə təşəkkül etdi. Hellenistik dünyada yunanlar azlıqda olsalar da, yunan dili fəlsəfənin və elmin dili olaraq qalmaqda və geniş ərazilərə yayılmaqda davam etdi (İslamın və ərəb dilinin güclənməsinə qədər).

Bir sıra Yunan-Roma fəlsəfə məktəbləri olmuş, onlar Platon Akademiyası və Aristotel liseyindəki kimi geniş elm sahələri üzrə deyil, fəlsəfə, əsasən də mənəviyyat/əxlaq fəlsəfəsi, etika ilə məşğul olmuşlar. Bu məktəblər arasında ikisi, Stoa və Epikurus məktəbləri öz təsir gücünə görə daha məşhur oldular. Bu məktəblər fəlsəfəni bir bilik sistemi kimi deyil, metafizika kimi deyil, daha çox həyat tərzi sayırdılar. Etika ilə yanaşı məntiq və fizika ilə də məşğul olurdular. Bu iki məktəbin materializmi bir-birindən fərqli olmuşdur.

Hellenistik dövründəki Platonçuluq və Aristotelçilik bu və ya digər şəkildə davam edirdi. Eyni zamanda Epikurçuluq, Stoaçılıq və Septiklər məktəbi də inkişaf etdi (sonuncu Akademiyaya aid edilir və Neoplatonçuluq kimi də səciyyələndirilir). Bu üç məktəbi çox ümumi sözlərlə xoşbəxtliyə üç baxış kimi səciyyələndirmək olar. Üstəlik, ciddi təhlil bu baxışların bir-biri ilə böyük ziddiyyətdə olmadığını, bənzərliyin daha çox olduğunu göstərir. Hər üç məktəb, Platon və Aristoteldən fərqli olaraq, əxlaqı siyasətdən kənar tutmağa çalışır, fərd xaricində olan şərtlərin mühüm olmadığını, fərdin onlardan asılı olmadan xoşbəxtliyi haqqında fikir yürüdürdülər (Stoaçılar hər halda bir qədər cəmiyyətçi idilər). Bu, Hellenistik dövrdə müəyyən mənada əxlaq fəlsəfəsinin siyasət fəlsəfəsindən ayrılması idi. Dövlət necə olmalıdır sualı dəbdən düşmüş, hətta mənasını itirmişdi. İnsan necə olmalı, necə yaşamalıdır, ətrafdakılarla necə münasibət qurmalıdır-bu suallar daha təbii idi. Ümumiyyətlə, bu fəlsəfə məktəbləri Platonçu-Aristotelçi fəlsəfədən fərqli olaraq insanı xarici aləmdən asılı deyil, müstəqil var ola bilən bir varlıq kimi qəbul

edirdilər (bir nəticə: dünyanı deyil, özünü dəyiş!). Epikurçu və Stoaçılar əxlaq fəlsəfəsində Sokratesçidirlər deyə bilərik (əxlaqı siyasətdən ayırma, əxlaqın bilgi ilə əlaqələndirilməsi, fəzilətlə xoşbəxtlik arasında yaxınlıq,..). Təbiət fəlsəfəsində bu məktəblər Platon-Aristotel idealizminə deyil, Sokratöncəsi təbiətşünas-filosoflara (fiziklərə), onların materialist görüşlərinə üz tutmuşlar. Epikuros Demokritos`un- atomçuluğun, Stoaçılar Herakleitos`un davamçılarıdırlar. Stoaçı məktəb dini görüşlərə daha çox diqqət yetirmiş, bu səbəbdən daha çox ardıcıllara malik olmuşdur (və daha uzun müddətdə fəal olmuşdur).

## B. Epikurus və "Bağ"

Epikurus (-342/-341, -271/-270) uşaqlıq və ilk gəncliyini Samos adasında keçirmişdi (anadan olduğu yer dəqiq bilinmir). Bir rəvayətə görə Epikuros kainatın xaosdan əmələ gəldiyi barədə oxuyarkən (Hesiod) müəllimlərindən bəs xaos nədən əmələ gəlib sualını veribmiş; bu suala cavab ala bilməmiş və öz-özünə elm və fəlsəfə ilə məşğul olmağa başlayıbmış.18 yaşında Afinaya gəlib iki il (-323, -322) hərbi xidmətdə olmuş (bu zaman Platon Akademiyasına Ksenokrates başçılıq edirdi, Aristotel Afinadan qaçmış, ömrünün sonunu Xalkis`də keçirməkdə idi; Ksenokratesdən dərs alması istisna edilmir), sonra Mutilin`ə qayıtmış (Lesbos adasında, indiki Türkiyənin Ayvalık məntəqəsi yaxınlığında), müəllimlik etmiş, (-311/10)-ci ildə o, Mitilin`də (Türkcə: Midilli) öz məktəbini açmışdı. Diogenes Laertius`un "Görkəmli filosofların həyat və təlimləri" əsərinin sonuncu-10-cu kitab Epikuros`a həsr olunub (bu əsərdə Platon haqqında hissə həcmcə Epikurosdan az yer tutur). Sonra Lampsak`a (indiki Lapseki, Çanakkale yaxınlığında; Lampsacus) köçmüş və (-307/6)-dan başlayaraq məktəb işini Afinada davam etdirmişdi. Mutilin və Lampsak`da başına toplanan tərəfdarları, tələbə və həmkarlarının bəziləri (və ya bir çoxu?) onunla Afinaya gəlmişdilər. Bu zaman Afinada Platon Akademiyası və Aristotel Liseum`u fəaliyyətdə idi (Liseum`un başçısı Theophrastus idi). Epikuros Afinada Platon Akademiyası yaxınlığında, Melite adlanan yerdə ev və bağ almış, bu bağda öz məktəbini yerləşdirmişdi (bir rəvayətə görə bu bağçalı evi onu sevən Lampsak`lılar alıb ona hədiyyə etmişdilər). Bu səbəbdən Epikuros məktəbini sadəcə "Bağ" adlandırmışdılar. Məktəb yardımsevərlərin köməyinə əsaslanırdı. Sadə, təvazökar həyat sürən, humanizmi ilə sevilən Epikuros`un məktəbi ("Epikuros bağı") filosoflarla yanaşı, sadə və kasıb insanların, kölə və qadınların, o cümlədən uşaqların üzünə açıq idi (üç qardaşı da onunla birlikdə idi?!). Epikuros bağı eyni dəyərləri və həyat tərzini bölüşən insanların, Epikurosa yaxın olmaq istəyənlərin dostluq bağı idi (bu baxımdan xüsusi dərs prooqramları və dərs deyənləri olan, həmçinin seçilmişlərin məkanı olan Akademiya və

Liseumdan fərqlənirdi; Stoaçılar da Epikur bağı kimi "açıq qapı" prinsipi ilə fərqlənirdilər). Ziddiyyət və ixtilaf deyil, həmrəylik bağı!

Epikurosun və ondan sonra məktəbin başçısı olan iki davamçısının çoxsaylı əsərləri itdiyi üçün onun nəzəriyyəsi ilə əsasən Epikurosçu Latın şair **Titus Lukretius Karus** (-99, -55), qismən də Laertli Diogenin şərhləri vasitəsilə tanış olmaq mümkündür. Çox məhsuldar olan, üç yüz ətrafında əsərin müəllifi olduğu deyilən (L. Diogenes) Epikurosun günümüzə üç məktubu (fəlsəfi sisteminin bir hissəsinin xülasəsindən ibarət) və bir neçə əsərindən fraqmentlər gəlib çatmışdır. Cicero və Hellenistik dövrün, həmçinin İslamaqədərki xristianlıq dövrünün digər filosofları da fəlsəfə tarixi tipli əsərlərində Epikuros, Stoaçı və Septiklər haqqında məlumat vermişlər.

Epikurosun əvvəlki filosofları (Aristotel, Demokrit, Levkipp,..) ciddi qəbul etmirdi (onlardan, xüsusilə Demokrit`dən bəhrələnsə də). Epikuros`a görə insan öz təbiəti etibarilə acı çəkmək istəməz və həzzə doğru qaçar. Həzz - yaxşı, acı – pisdir, amma hər həzzə çatmaq və bütün acılardan qaçmaq olmur. Ən böyük həzz acının olmamasıdır. Deməli, xoşbəxtlik həzzdə, aza qane olmaqda, yəni ölçülü (mülayim, mötədil) həzzdə, ağrısız həyatda, ruh rahatlığında, könül xoşluğundadır (həzz "ruhun qayğılardan, bədənin fiziki acılardan qorunmuş və ya qurtulmuş olmasıdır"). Həzz və acı duyğuları nə istədiyimizi, nə istəmədiyimizi, nə etməli olduğumuzu müəyyən edən əsas kriteriyalar və ya prinsiplərdir. Epikuros`un fikri Aristotelinkinə bənzəyir. Aristotel`ə görə həzz xoşbəxtliyə kömək edir, onun bir ünsürüdür. Epikuros isə xoşbəxtliyi həzzlə eyniləşdirir. Epikuros müdrikliyin fəlsəfədən üstün olduğunu deyir; müdriklik yalnız düzgün həyatın həzzverici ola biləcəyini və tərsinə, həzzin olmadığı halda düzgün və şərəfli həyatın da mümkün olmadığını göstərir. Ölçülü olmaq həzzdən vaz keçmək deyil, daha böyük həzzlərə yol açmağa aparır (gələcək mühümdür).

Epikuros - təcrübədən, sınaqdan keçməyən heç nəyə inanmayın, inam ancaq təcrübə və məntiq vasitəsilə əldə edilir – fikri ilə elmi metodun atası (atalarından biri) sayıla bilər. Duyğular (duyğu orqanları) vasitəsilə dərk ediləndən başqa bilik yoxdur (Platonun əksinə və Demokrites`ə bənzər).Yanlışlıq (və tam həqiqət!?) duyğu orqanları vasitəsilə dərk edilib çıxarılan hökmdə, rəydə ola bilər. Daha dəqiq deyilsə, duyğular yaxın olan, açıq və ya canlı olan obyektlər haqqında səhv etmir. Obyekt haqqında xəyallar, surətlər çoxdur, onlar uzaqda olduqca həqiqətdən uzaq ola bilərlər. Boşluq cisim olmadığı üçün onu duyğu orqanlarımız vasitəsilə dərk edə bilmirik, amma onu açıq-aydın olan başqa bir şeylə, bu halda hərəkətin varlığı ilə dərk edirik; hərəkət var, deməli boşluq da var.

Epikurosa görə boşluqda hərəkət edən atom istənilən an istiqamətini dəyişdirə bilər(istəyə, iradəyə bağlı hərəkətin qaynağı budur!). Bu, Leucippus-Demokritus atom nəzəriyyəsindəki mütləq determinizmin Epikurosçularda azad iradə ilə əvəz olunması idi. İnsan ağıl və seçmə vasitəsilə yaxşı həyat sürə bilər. Epikuros: Yaxşı düşünülmüş bir işin uğursuzluğu talenin köməyilə ortaya çıxmış bir uğurdan daha yaxşıdır!

Romalı şair Lukretius ("-99"-"-55") *De Rerum Natura* (Şeylərin təbiəti haqqında) adlı altı kitabdan ibarət didaktik poemasında Epikurçuluq təlimini, o cümlədən, atomçuluğu şərh və tərənnüm etmişdi (o, 44 yaşında özünə qəsd edib öldü). Epikuros və L. Karus düzxətli hərəkətdən yayına bilən, çəkisi olan atomlardan söz açırlar. Atomların ağırlığı var və onlar boşluqda təbii olaraq yuxarıdan aşağıya doğru hərəkət edirlər. Sonra bu düz yoldan sapmalar başlayıb, əks halda heç nə yaranmazdı; bir-biri ilə toqquşarkən hərəkət istiqaməti dəyişib müxtəlif ola bilir. Aristotel sürətin qüvvə ilə düz, müqavimətlə tərs mütənasib olduğunu deyirdi (v=f/r); boşluqda (r=o) sürət sonsuz olmalıdır, deməli boşluq yoxdur. Epikuros atomların "düşüncə qədər sürətlə", amma sonlu və eyni sürətlə hərəkət etdiklərini deyir; cisimlər isə onları təşkil edən atomlar qədər sürətli olmaya bilərlər.

L. Karus Roma imperiyasında dini hisslərin güclənməsi nəticəsində çox oxunmadı və tanınmadı, lakin İntibah dövründən başlayaraq böyük populyarlıq qazandı. L. Karus Epikurun fikirlərini təkrar etməklə yanaşı hər şeyin kainatın mərkəzinə doğru yaxınlaşdığını qəbul etmirdi. "Kainatın sonu yoxdursa, onun mərkəzi də ola bilməz" deyirdi, bundan məntiqi nəticə kimi Yerin Kainatda mərkəzi vəziyyət tutmadığı alınırdı. Amma L. Karus Yerin kürə şəkilli olduğunu qəbul etmir, Yer düz/müstəvi şəkillidir deyir (bir çox mütəfəkkirlərin xeyli əvvəl Yerin kürə şəkilli olduğunu izah etmələrinə baxmayaraq –şair?!). L. Karus poemanın sonlarına doğru antropoloji düşüncələrə dalır, ilk insanların sosiallaşması (ailə, qonşuluq, birgə hərəkət zəruriyyəti) tarixinə, dilin əmələ gəlməsi, qadın və kişilərin məşğuliyyət fərqləri və oxşarlıqları, şəhərləşmə və mülkiyyət, dinin mənşəi, ekoloji sarsıntılar, maqnitin təbiəti kimi məsələlərə nəzər salmağa çalışır. (Friedrich Albert Lange. Materializmin tarixi və günümüzdəki anlamının eleştirisi. 1-ci cild, Sosyal yayınlar, 1998; səh. 128-147). L. Karus təbiətşünas şairdir.

Kainatda atomların sayı sonsuzdur, lakin atomların forması-biçimi çox cürbəcür olsa da, sonlu saydadır (Demokritus`dan fərqli olaraq). Epikuros ruhun da maddi (atomlardan ibarət) olduğu düşüncəsindədir, ruh bədənlə birlikdədir, bədənlə birlikdə doğulur, böyüyür və ölür; ruh bədənə, bədən

ruha təsir edir. Sadəcə ruhu əmələ gətirən atomlar çox sürətli və çox kiçik və bəzi digər özəlliklərə malikdirlər ki, nəticədə ruh nəfəs, hərarət kimi xassələrə malikdir.Epikuros`a (və Stoaçılara) görə ağlın və hisslərin mərkəzi ürək və ya köksdür. Duyğu orqanları bədəndə olduğu üçün ruhun bədəndən ayrı yaşaması, duyması mümkün deyil. O, Ölümdən sonra hər hansı şəkildə həyatın mövcudluğunu qəbul etmirdi. "Bədəni müalicə edə bilməyən tibb kimi ruhun xəstəliyini müalicə edə bilməyən fəlsəfənin heç bir xeyri yoxdur". Yəni fəlsəfə yaşamağa kömək etməli, həyat fəlsəfəsi olmalıdır (ölüm fəlsəfəsi deyil).

İctimai münasibətlərdə təmənnasız dostluğu mühüm sayır (cinsi əlaqə istisna olmaqla), hakimiyyətdən uzaqda durmağı məsləhət görürdü (hakimiyyət ağrı gətirə bilir). Epikurus`un fəlsəfəsi xoşbəxtlik fəlsəfəsidir, "kim fəlsəfə ilə məşğul olmaq vaxtı çatmayıb və ya keçib deyirsə, o, xoşbəxtlik vaxtı hələ çatmayıb və ya keçib deyənə bənzəyir" (Антология мировой философии. Москва, 1969; с. 354). Epikuros fəlsəfəyə ehtiyacın və marağın səbəbləri olaraq səmaya, göylərə qarşı şübhəni, ölümün mənası haqqında düşüncələri və ağrı və arzunun sərhədlərini bilməməyi göstərirdi.

Bağa girişdə "Qonaq/Qərib, burada rahat/məmnun olacaqsan, burada ən ali gözəllik/xoşbəxtlik olan həzz var" yazıldığı deyilir (Seneka; Latıncası: hospes hic bene manebis hic summum bonum voluptas est). Bu şüarın Platon Akademiyasına girişdə yazılmış şüarla müqayisəsi, yəqin ki, iki məktəb arasındakı fərq göstərən əlamətlərdən biridir. Nietzsche`yə görə "kiçik bir bağça, bir az əncir, bir parça pendir, bir neçə də dost, yoldaş – bax budur Epikurosun zənginliyi"(Epikuros bir dostuna yazdığı məktubda "mənə bir qab pendir göndər ki, ürəyim istəyən qədər kef çəkim" deyə yazmışdı). Əgər o, geniş mənada həzzi deyil, ağrısız-acısız sadə yaşamağı həyat tərzinə çevirmişdisə, görünür ki, onun həzz anlayışı kifayət dərəcədə dar mənada olub."Təbiəti zorlamaq olmaz, ona tabe olmaq lazımdır". Təbii və zəruri olan arzuları, tələbatları(yemək, içmək, yaşayış yeri kimi) tam qarşılamaq lazımdır, təbii, amma zəruri olmayanları (cinsi əlaqə kimi) mülayimliklə, mötədil olaraq qarşılamaq lazımdır, eyni zamanda təbii olmayan və zəruri olmayanlardan (özünə heykəl qoymaq, şöhrət üçün hər yola əl atmaq, qeyri-adi şərəf qazanmaq kimi) tam uzaq durmaq lazımdır. "Qızıl yataqda və bahalı masada qorxu içində olmaqdansa, saman üzərində qorxusuz olmaq yaxşıdır".

Epikuros səhhəti yaxşı deyildi, sağalmaz xəstəliyi vardı (mədəsində daş və s), ömrü boyu ağrıyır, əzab çəkir, ancaq dözümlü idi, ağrıları mətanətlə qarşılayırdı, həyata nikbin gözlə baxır və bunu öyrətməyə çalışırdı. Aydın

və güclü fikir cismani əziyyətləri azaldır və arxa plana atır. Xoşbəxt o kəsdir ki, nifrət hissindən uzaqdır, dostlarla birlikdə həyatdan həzz ala bilir. Epikuros bu bağçalı evi öz tələbələrinə vəsiyyət etdi; onlar burada yaşayır, toplaşır, müzakirələr aparır, daima ustadlarını yad edir, onu tanrılaşdırırdılar (Seneka: tələbələri ona insanlar arasında yaşayan Tanrı kimi baxırdılar, Epikurosun ölümündən sonra onun ardıcılları və tələbələri arasında "elə yaşa ki, sanki Epikurosun gözü sənin üstündədir" şüarı yayılmışdı). Epikuros ölüm qabağı dostlarına yazdığı iki məktubda vaxtsız ölən tələbəsi Metrodorusun uşaqlarına qayğı göstərmələrini xahiş etmişdi. Epikurosçuların Aleksandriya, Roma, Antakya kimi yerlərdə məktəbləri olduğu deyilir. Lukretius Epikurosu bəşəriyyətə verdiyi xeyirə görə Tanrı sayırdı. Epikurosu və Epikuros məktəbini sevməyənlər, xüsusi halda rəqib məktəb - Stoaçılar və xristianlar Epikuros`un şəxsiyyəti və ailəsi, eyş-işrət həyatı keçirməsi, natəmizliyi, başqalarının əsərlərini mənimsəməsi kimi müxtəlif şayiələr yaymışdılar. Lakin Epikuros haqqında Diogenesin fikirləri, daha əsaslı və daha etibarlı görünür: Epikuros sadə və təvazökar, dostsevər idi, valideynlərinə qarşı vəfalı idi, ailəsini sevirdi, şöhrət üçün can atmırdı, siyasətdən uzaq dururdu, dini və digər cəmiyyət inanclarına dözümlü yanaşırdı, məsuliyyətli idi,...

Ədalət insanlar arasında bir-birlərinə ziyan vurmamaq, başqasına zərər verməmək və başqasından zərər görməmək üçünbir müqavilədir (Материалисты древней Греции. Москва, 1955; с. 230)-Epikurosun bu fikri K.Marksa görə dövlətin vətəndaşlar arasındakı ictimai müqaviləyə əsaslanması barədə ilk fikirdir. Belə müqavilənin olmadığı yerdə ədalətsizlik hökm sürəcək. Qanunlar tarixi inkişafın nəticəsində meydana çıxmışlar. Müdrik insan siyasətdən uzaq durmalıdır; dövlət deyil, dostlar!

Tanrıların varlığını Epikuros insanların təbiətən bunu qəbul etməsi ilə, önfikirlə əlaqələndirir; tanrıların ölümsüz və xoşbəxt olmaları da eynilə izah olunur. Dünyada insandan daha gözəl forma/biçim yoxdur, bu səbəblə belə bir ortaq önfikir də var ki, mükəmməl olan tanrılar insan biçimindədirlər. Əslində atom və boşluqdan ibarət materialist Epikur dünyasında tanrılara yer tapmaq asan deyil. Tanrılar yarı cisim, yarı qeyri-cisimdirlər (tam cisim olsalar varoluş və yoxoluşa məruz qalardılar). Tanrılar xoşbəxtdirlər və insanlara xas olan qayğı, qorxu, xeyirsevərlik kimi keyfiyyətlərə sahib deyillər. O, tanrıların cəmiyyəti nəzarətə götürmədiyini deyir (ənənəvi yunan tanrılarından, həmçinin Platondan kəskin fərqli görüşdür; Aristotel isə tanrıların rolunu mühüm dərəcədə azaltmışdı), azad iradənin gücünə

inanırdı. Epikuros tanrı qorxusunu ortadan götürmüşdü. Lukretius isə tanrıtanımazdır.

“ Tanrı ya şəri məhv etmək istəyir, amma gücü çatmır; ya onu məhv edə bilər, amma istəmir; ya məhv etmək istəmir və edə bilmir; ya gücü çatır və istəyir. 1-ci halda Tanrı fövqəlgüc deyil, bu doğru deyil. 2-ci halda Tanrının xoş iradəyə malik deyil, bunu da fərz etmək olmaz. 3-cü halda Tanrı xoş, rəhmli deyil və fövqəlgüc deyil. Sonuncu hal qalır: Tanrı şəri məhv edə bilir və bunu istəyir. Bəs bunu nə üçün etmir? Çünki o, dünya hadisələrinin işinə qarışmaq istəmir” (Материалисты древней Греции. Москва, 1955; с. 233). Tanrının xeyrxah olması və eyni zamanda şərin mövcudluğuna aid bu mülahizə “Epikurus paradoksu”, “Şər problemi”, “trilemma” kimi adlarla tanınır. Epikurçu Lukretsini (“Şeylərin təbiəti haqqında” didaktik poema) isə bu mühakimə Tanrının mövcud olmadığı fikrinə gətirib çıxarır (özü haqqında heç bir işarə vermir və insanların həyatına qarışmır). Epikurosa görə tanrı və ölüm qarşısında vahimə xoşbəxtliyə mane olur. Lakin bu vahimə üçün əsas yoxdur - Tanrı işlərimizə qarışmır və “ölümün bizə dəxli yoxdur, çünki biz mövcud olan müddətdə ölüm yoxdur; ölüm gələndə isə biz yoxuq/olmayacağıq” (Материалисты древней Греции. Москва, 1955; с. 209). İztirablara qalib gəlmək lazımdır.Xristianlığın güclənməsi Epikurus məktəbini zəiflətdi. Epikur məktəbinin əsasında sevilən, əfsanələşmiş Epikuros şəxsiyyəti və təlimi dayanırdı; Stoa məktəbinin zaman-zaman çox ünlü şəxsiyyətlərə dayanan inkişafı Epikuros məktəbinə xas deyildi.

## C. Stoa məktəbi

**Stoa məktəbi**`nin banisi Kitiumlu (Kıprıs adası) Zeno(n) dur (-?334, -270/261). O, -311-ci il ətrafında Afinaya getmiş, orada, o cümlədən Platon Akademiyasında təlim almış, sonra Afinanın şimal hissəsində toplantı (bazar) məkanında (Aqora`da) öz məktəbini açmışdı (-300-cü il ərtafında). Epikuros və Stoa məktəbləri bir-birinə yaxın illərdə fəaliyyətə başlamışdılar. Stoa məktəbi Platon Akademiyası ilə Aristotel Liseumu arasında (Epikurus Bağı ilə Liseum arasında) yerləşirdi. Bu tünlük tələbə cəlb etmək baxımından əlverişli idi.

Stoaçı məktəb təbiət fəlsəfəsində Herakleitos`u izləyir, odu (bir qədər sonra-Krizippos zamanından başlayaraq hava ilə odun qarışığı olan isti nəfəsi) əsas ana maddə sayır. Əxlaq fəlsəfəsində isə Stoaçılar əsasən Sokratesdən və Sokratesçi məktəblərdən (Kiniklər, Meqara) bəhrələnmişlər. Teolojidə baxışları Platonun fikirləri ilə səsləşir. Stoaçılar Aristotel`in görüşlərindən də bəlli ölçüdə bəhrələnmişlər (o cümlədən əxlaq fəlsəfəsində).

Ümumiyyətlə, Stoa məktəbinə xas olan tam sabit görüşlər sistemindən danışmaq çətindir (məsələn, materializm əvvəl əsas görüş idi, stoaçıların mühüm Roma dövründə isə bu xeyli dəyişmişdi); Stoaçıların görüşləri bir-birindən fərqlənə bilir. Stoaçılar mülayim dini görüşlərə malik olmuş, öz sistemlərində Tanrıya yer vermiş, bu səbəbdən də Roma dövründə çox ardıcılları olmuşdur (Epikurosçuluq və Aristotelçiliklə müqayisədə)

**Zeno(n)** Stoa adlı divarları rəsmlərlə bəzədilmiş sütunlu eyvanda (Stoa Poikile) mühazirə oxumağa başlamışdı (L. Diogenes`ə görə Zenon öz məktəbində 40 il dərs demişdi). O, Afinada böyük hörmət qazanmış, "Zenondan özünə daha hakim", həmçinin "iki qulağımız, bir ağzımız var ki, az danışıb çox dinləyək" ifadələri geniş yayılıbmış. Zenon fəlsəfəni fizika, məntiq və etikadan ibarət hesab edirdi. Stopaçıların 3-cü başçısı (Zenon və Kleanfes`dın sonra isə Stoaçılığı sistemləşdirən, onun ikinci banisi sayılan Kilikiyalı **Krizippos** (-281/80, -208/7) oldu ("Krizippos olmasaydı Stoaçılıq da olmazdı" ifadəsi yayılıbmış). O, Platon Akademiyasında, həmçinin skeptik Arkesilaos`dan dərs almış, sonda Stoaçılara qoşulmuşdur. Məntiq və dialektikada çox güclü olduğu söylənilir. Məktəbin digər davamçıları başçı deyil, fəlsəfi məktəbin görkəmli nümayəndələri sayılırlar, yəni məktəbin bir qurum kimi fəaliyyəti haqqında bir şey demək olmur. Zenon`un tələbələri arasında Xioslu **Ariston** da olmuşdur. O, məntiqi və təbiət fəlsəfəsini fayda və xoşbəxt həyat baxımından lazımsız/yararsız ("hörümçək toru kimi") sayırdı.

Rhodes`li **Panaetius/Panaitios** (?"-185"-"?-109") orta dövr Stoaçı`ların görkəmli nümayəndələrindən biri idi, "-129"-cu ildə Afinaya gəlib Stoa məktəbinə başçılıq etdi.

Suriyəli (Apamea`lı) yunan **Posidonius/Poseidonios** (?"-135"-"-51/50") Afinada Panaetius`un tələbəsi olmuş, sonra Rhodes`ə getmiş, orada Stoaçı məktəbə başçılıq etmiş, Cicero ("-79/77-ci illərdə) və digər Romalıları öz təliminə cəlb etmişdi. Astronomiya, riyaziyyat, etnoqrafiya, fəlsəfə, coğrafiya və tarixlə maraqlanmış, fəlsəfi əsərlərə şərhlər yazmışdı (yunanca). Yer kürəsi çevrəsinin uzunluğunu hesablamışdı. Posidonius Atlantik okeanında (Gadeira, Cadiz, İspaniya) qabarma və çəkilməni müşahidə etmiş, onun Günəş və Ayın hərəkətləri ilə izah etmişdi. O, məntiqə önəm verməmiş, fizika və kosmologiyada ilk Stoaçılardan daha ehtiyatlı davranmış, şübhəli saydığı ideyaları rədd etmiş, əxlaq fəlsəfəsində daha mülayim və mötədil mövqe tutmuşdu. Posidonius əvvəlki Stoaçılardan fərqli olaraq ruhun bədənlə birlikdə ölmədiyini deyirdi. Pis adamların ruhu

çirklidir və çox yuxarı-göylərə qalxa bilmir (yaxşı adamların ruhu ilə müqayisədə).

Bu və sonrakı Roma dövründə ilkin Stoa ideyaları digər fəlsəfi görüşlərlə zənginləşdi, bir sintez şəkli aldı, əsasən əxlaq və mənəviyyat fəlsəfəsi kimi öz inkişafını tapdı. Stoisizm Hellenistik dövründə ən populyar fəlsəfi cərəyanlardan birinə çevrildi, Romada (Stoaçıların üçüncü və ya son dövrü) öz davamçılarını tapdı: **L.A. Seneka** (?-4, 65) (Epikurşuluğa da rəğbəti vardı), **Epiktetos** (50/55-125/135), imperator **Markus Aurelius** (121-180). Onlar əsasən əxlaq fəlsəfəsi ilə məşğul olur, əvvəlki Stoaçılara nisbətdə daha yumşaq, daha liberal vəziyyət tuturdular. Seneka imperator Kaliqula`nın hirsinə (qısqanclığına?!) düçar olaraq ölüm təhlükəsiylə üzləşmiş, Neronun müəllimi, o imperator olduqdan sonra isə müşaviri olmuşdur. Çox böyük sərvət sahibi olan və siyasətçi həyatı keçirən Senekanın həyatı ziddiyyətlidir (Engels: dediyi və əməli bir-birinə zidd, kasıblığı öyən, Nerondan böyük hədiyyələr qoparan, quyruq bulayan). Lakin Neron`a qarşı sui-qəsddə günahlandırılaraq intihara məcbur edilmişdir (damarlarının kəsilməsi ilə). Əsərləri etika üzrə dialoqlardan və məktublardan (o cümlədən ölümün necə qarşılanmasından bəhs edən), həmçinin faciə - dramlardan ibarətdir; əsərlərini latınca yazırdı. İnsanlar ilahi atəşin bir parşası olaraq bərabərdirlər, insan ruhu isə bədən içinə yerləşmiş ilahi nəfəsdir. Bütün insanları içinə alan tək bir dövlətə ehtiyac var. Əxlaqın pozulmasını ancaq fəlsəfə vasitəsilə aradan qaldırmaq mümkündür.

Kölə ailədə doğulmuş, uzun zaman kölə olmuş, sonra köləlikdən azad edilmiş **Epiktetos** 89-cu ildə Yunanıstana, Nikopolis`ə getmiş, orada öz məktəbini qurmuş, fəlsəfə öyrətməyə başlamışdı (o, yunan əsilli idi). Sokrates sayağı dialoq-müzakirə üsulu ilə dərs vermiş, heç nə yazmamışdır. Onun tələbələri arasında tarixçi və dövlət adamı Flavius Arrianus (86-?160) da olub; Epiktekos və onun yaradıcılığı haqqında məlumat üçün Arriana borcluyuq. Arrian – tarixçi, filosof, Roma dövlət xadimi və sərkərdə, etnik yunan, Makedoniyalı Aleksandr haqqında iki kitabın, həmçinin hərbi taktika üzrə əsərlərin müəllifidir. Arrianus dərs qeydlərini təqribən 108-ci ildə kitabça şəklinə salmışdır (çağdaş ingiliscə "Discourses of Epictetus" adlanır). Epiktetos ancaq əxlaq fəlsəfəsi ilə maraqlanmış, o cümlədən niyə yalan söyləməmək və bunu necə etmək məsələsi ilə məşğul olmuşdur. "İnsanları bədbəxt edən şeylərin özü deyil, onlar haqqındakı rəylərimiz, qənaətimizdir". Tanrının və ya Dünyanın idarə etdiyi bir oyunda, yəni həyatda bir rol almısan və bu rolu yaxşı oynamağa çalışmalısan. Rolu seçmək başqasına, rolu yaxşı oynamaq sənə aiddir. Hər ağır sayılan

vəziyyətdə də xoşbəxt olmaq mümkündür. İnsanlar qardaşdırlar. Epiktetos topal idi. Kölə ikən sahibi onun ayaqlarını buxovla burmağa başlayanda Epiktetos sakit şəkildə “diqqət et, qıracaqsan” demiş, sahibi davam edib onun ayağını qırdıqda bu dəfə Epiktetos “dedim ki, onu qıracaqsan” deyibmiş.

161-ci ildə imperatorluğa başlayan (Antoninus`un ölümü ilə) **M. Aurelius** ən yaxşı müəllimlərdən fəlsəfə öyrənmişdi. 175-ci ildə səfər zamanı Afinada olmuş, Platon, Aristotel, Stoa və Epikur məktəblərinə yardım etmişdi. “Düşüncələr” adlı əsəri gündəlik kimidir, ağır həyatdan yorğun düşdüyünü də ortaya qoyan bu əsər əsasən əxlaq və din haqqında Stoaçı fikirlərindən ibarətdir. “Zaman bir çay, hər şeyi meydana gətirən güclü bir axın kimidir; bir şey ortaya çıxar-çıxmaz ortadan yox olar”. “Arxamızda keçmişin böyük uçurumu, önümüzdə hər şeyin içində yox olduğu gələcək vardır”. Həyat qısa və keçicidir, ölüm qaçınılmazdır, “təbiətə uyğun bir şəkildə yaşamaq” lazımdır. Seneka kimi tək dövlət prinsipini irəli sürür, “ağıl bizdə ortaqsa, qanunlar da ortaq olmalıdır”, bu, “ortaq idarəetmə” deməkdir, “bütün dünya tək bir şəhər kimidir” (xristianları təqb edirdi).

Orta dövrdən başlayaraq Stoaçı məktəbin mərkəzi Roma olmuşdur. Roma imperatorluq dövründə Stoaçılar məktəbini əxlaq fəlsəfəsi ilə yanaşı dini meyllərin güclənməsi, fəlsəfi din halına gəlməsi kimi də səciyyələndirmək olar. Stoaçıların ilk və orta dövrü nümayəndələrinin əsərləri, demək olar ki, qalmamışdır. Əsas məlumatlar Laertli Diogen və Seneka`nın, həmçinin Afrodisiyalı Aleksandros, tarixçi Plutarxos, Galen, Sekstus Emprikus, Makedoniyalı Stobaios (5-ci əsr) kimilərin əsərlərindən əxz edilə bilir. Müxtəlif dövr Stoaçılarının görüşləri arasında bəzi ciddi fərqlər və ziddiyyətlər də mövcuddur.

Zenon və onun bir çox davamçıları təbiətdə hər şeyin –bütün cisimlərin, fəza və zamanın kəsilməz olduğunu, cisimlərin sonsuza qədər bölünəbilir olduqlarını müdafiə edir, bu baxımdan Epikuros məktəbi ilə əks tərəfdə yer tuturdular.Stoaçılara görə Ay-altı və Ay-üstü dünyalar arasında təməl ayrılıq yoxdur. İnsan nədir, onun dünyada yeri və rolu nədir? Təbiət fəlsəfəsinə aid bu kimi suallara cavab axtarmaqla xoşbəxtliyə gedən yola nəzər salmaq mümkündür, çünki xoşbəxtlik təbiətə uyğun yaşamaqdır. Bu dünya müdrik və ağıllı bir varlığın əsəridir, mümkün ola bilən ən mükəmməl dünyadır.

Var olan şeylər fərdlərdir, hiss olunan varlıqlardır. Ümumi olan ancaq xəyalın, insan zehninin məhsuludur, fikir və ya inancdır. Bilginin qaynağı təcrübədir (Epikurçularda da). Təcrübə düşüncə və ağıldan əvvəl gəlsə də,

qərarı ağıl/zehin verir. Ağıl təcrübənin düzənləyicisidir. Zenon məntiq, fizika və etikanı müqayisə edir, etikanı mərkəzə yerləşdirirdi: fəlsəfə bir meyvə bağıdırsa, məntiq-divarlar, fizika-ağaclar, etika-meyvələrdir və ya fəlsəfə yumurta ilə müqayisə olunsa, məntiq-qabıq, fizika-yumurtanın ağı, etika-sarısıdır (B. Russell, səh. 250-rusca).

Təbiət var olan şeylərlə yanaşı kentavr kimi yalnız zehində olan, düşüncənin və ya xəyalın məhsulu olan var olmayanları, həmçinin sözlə söylənən şeylər (anlayışlar - doğru və ya yanlış olan), zaman, boşluq, məkan/yer kimi cisim olmayan şeyləri də içinə alır. Yəni Stoaçılarda "bir şey" varolanı əvəz edir, "bir şey" anlayışı cismən varolanlardan daha geniş anlayışdır (bu, Platon və Aristotel`in ideal varolanlarının tam tərsidir). Stoaçılar varlığı maddiyyətlə eyniləşdirir, maddi olmayan bir şeyin başqa heç nəyə təsir etmədiyini və heç nədən təsirlənmədiyini (Cicero`ya görə Zenon), deməli onun varolmadığını deyirdilər. Təsir dedikdə Stoaçılar təması (uzaqdan təsiri deyil) nəzərdə tuturdular. Ruh da bir cisimdir, bədənlə təmasdadır, ondan ayrıla bilir (pis ruhlar bədən öləndən sonra çox yaşamaz, yox olar, yaxşı ruhlar isə "son yanğın"a qədər yaşayırlar. Tanrı da cisimdir (!?). Aristoteldə təbiət Tanrıdan (Ağıldan) ayrı mövcud idi, Stoaçılarda isə deyil.

Maddələri bir edən də, onları fərqləndirən də onlara xas olan gərginlik qüvvəsidir; içə doğru yönəlib birləşdirən fiziki qüvvə, kənara/xaricə doğru yönəlib maddələri bir-birində fərqli edən bioloji və ya canlılıq qüvvəsi mövcuddur. Canlı aləmdə (bitki, heyvan, insan) böyümə, ruh və ağıl canlılıq qüvvəsidir.

Kainatın başlanğıcı və sonu var. Sonda kainat böyük yanğın nəticəsində (yenidən) oda dönəcək və kainatın əmələ gəlməsi-sona yetməsi işi daima davam edəcək. Stoaçılara görə (sonsuz) boşluq ancaq kainatdan kənarda (kainatın xaricində) mövcuddur; bu boşluq cisim olmadığına görə kainata təsir etmək gücünə malik deyil (kainatın boşluqdan qorxusu yoxdur). Kainat isti nəfəs və gərginlik hesabına bütövlüyünü saxlayacaq. Stoaçılar kainatın zaman baxımından təkrarlandığını, doğulduğunu və böyük yanğına məruz qalıb yox olduğunu (oda döndüyünü və ya kainatı başlanğıc nöqtəsinə gətirdiyini) və yenidən oddan digər maddələrin törədiyini, kainatın yenidən meydana gəldiyini irəli sürürdülər (onlar hətta şəxslərin və hadisələrin də təkrarlanacağını deyirdilər). Bu, yunanların kainat haqqında dövri təkrarlanma fəlsəfəsinə uyğun idi. Zaman isə hərəkətin və ya sürətlənmə və ya yavaşımanın ölçüsüdür (Aristotelə bənzər şəkildə). Tanrı zaman xaricində deyil, zaman içində bir varlıqdır (Aristotelin əksinə).

Yunan-Ellinistik-Roma dövrünün filosofları içində determinizmə, səbəbiyyətə ən çox inananlar Stoaçılardır. Baş verən hər şeyin səbəbi var. Baş verənlər sonrakı hadisələrin səbəbidir. Təsadüfi heç nə yoxdur. "Zamanın axışı sarılmış bir ip yumağının açılışı kimidir: onda yeni heç nə ortaya çıxmaz" (Cicero). Stoaçı determinizmin qaynağı "hər şeyin səbəbi Tanrı və ya Ağıldır" fikridir. Tanrı öz iradəsini dəyişmir. "Bir şeyin səbəbsiz olaraq meydana çıxması onun var olmayan bir şeydən meydana çıxmasına bənzəyir və onun qədər imkansızdır" (Afrodisiyalı Aleksandros). Atomçuların mütləq determinizminə qarşı Aristotel Ay-altı aləmdə mütləq determinizmin olmadığını göstərirdi. Stoaçılar isə Ay-üstü ilə Ay-altı arasında Aristotelçi ciddi fərqi qəbul etmirdilər. Stoaçılar öz Səbəbiyyət (səbəbi olan hadisə baş verəcək) fikirlərindən Qədərçilik (hansı şərtlər olur-olsun hadisə baş verəcək,talenin dedikləri olacaq) çıxmır desələr də, buna yönələn arqumentləri (əsasən Krizippos) inandırıcı görünmür (xüsusilə də iradəsi dəyişməz Tanrıya ayırdıqları rola görə). Azad iradə ilə determinizmi uzlaşdırmaq olmur. Ümumiyyətlə, Stoaçıların etikasında müəyyən ziddiyyətlərə rast gəlinir.

Seneka`ya görə ilk gün son günü müəyyən edir, heç bir yalvar-yaxar baş verənlərin qarşısını ala bilməz, səbəblərin kələfini Tanrı belə dəyişə bilməz (?!). Sadəcə ehtirası ağıla/idraka, bədəni ruha tabe etmək lazımdır. Yanılanlar, yolunu azanlar (insan övladı bunsuz keçinmir) bunu qeyri-ixtiyari və bilməzlikdən edirlər, onlara əl uzatmaq lazımdır. Seneka "ölüm xilasdır" fikrinin carçısıdır: "Yaşamaq xoşuna gəlir? Yaşa! Xoşuna gəlmir? Gəldiyin yerə qayıda bilərsən...Bir addım və sən artıq təhlükədən sovuşmusan".

Kainatdakı düzən, mükəmməllik, gözəllik təsadüfi ola bilməz, o, bir Ağlın-Zehnin əsəri olmalıdır (Tanrının varlığının teleoloji dəlili). "İçində olduğumuz zərif və gözəl dünya" Epikurçular deyən kimi əmələ gələ bilməz (Cicero. Tanrıların təbiəti haqqında). "Təbiətdə insan tərəfindən yaradılmış olması mümkün olmayan sonsuz intizama sahib səma cisimləri və digər bəzi şeylər var. O halda onları meydana gətirən insandan üstündür. Bu varlığa Tanrı`dan daha uyğun başqa hansı adı verə bilərikmi?!" (Cicero. Tth) . "Xeyrxah Tanrı niyə dünyada pisliklərə yol verir?" sualına qarşı Stoaçılar müxtəlif arqumentlərlə Tanrını müdafiə edirlər. Məsələn, pislik olmasa, yaxşılığın nə olduğu bilinməzdi. Bir-birinə zidd olanlar yalnız birlikdə qavranıla bilərlər. Digər izah: Pisliklər və yararsız şeylər böyük yaxşıların yan məhsuludur. Daha bir izah: Dünya bütövlükdə yaxşıdır, mükəmməldir, amma fərdlərdə nöqsan və pisliklər ola bilir (Krizippos).

Xoşbəxtlik – rahat və razı yaşamaqdır. Təbiətə tən gələn şeylərdən rasional seçim etmək – budur həyatın ahəngi. Müdriklikdən qaynaqlanmayan bir əməl, nəticəsi yaxşı olsa belə, həqiqətən yaxşı deyə qiymətləndirilə bilməz (Stoaçılar bu nöqtədə Sokrates`dən fərqli görüş nümayiş etdirirlər, insanları müdrik və müdrik olmayan kimi iki sinfə bölüb yaxşı əməli ancaq müdriklərə aid edirlər. Sokrates isə insanın bilə-bilə pis hərəkət etmədiyini irəli sürürdü).

Stoaçılar insanın mütləq olaraq iki zidd keyfiyyətdən birinə malik olduğunu, aralıq bir vəziyyətin, müxtəlif dərəcələrin olmadığını deyirlər, insan ya ədalətlidir, ya da ədalətsiz, cəsarətlidir, ya da qorxaq, ya fəzilətlidir, ya da fəzilətsiz, ya biliklidir, müdrikdir, ya da cahil. Stoaçılar müdrik insanın sanki Tanrıya yaxın keyfiyyətlərə malik olduğunu deyirlər; onlar belə insanın müstəsna, nadir, ideal olduğunu da qeyd edirlər (Krizippos). Belə çıxır ki, insanların çox böyük əksəriyyəti cahil və fəzilətsizdirlər (Afrodisiyalı Aleksandros). Bəzi Stoaçılar, xüsusilə Panaitios iki kənar arasında, yəni fəzilətə bənzər xüsusiyyətləri olan insanlardan söz açır, müdrik olmayan hər kəs heç də cahil, ağılsız və ya dəli deyil. İnsanların hər birinin həyatda öz rolları var, onlar bu rollarını öz bacarıqları çərçivəsində yaxşı oynamağa çalışmalıdırlar. Epiktetos və M. Aurelius da bu fikrin tərəfdarları olmuşlar; Bizdən kənarda, xaricdə olan şeyləri bir kənara qoyub geri qalan, seçdiyimiz şeylərlə yaxşı, ürəkdən məşğul olmaq, mümkün qədər az xəta etməyə çalışmalıyıq (Epiktetos).

Vacib olan insana ləyaqətin nəzarət etməsidir; həzz və ağrı, kasıb və zəngin, xəstə və sağlam olmaq –bunlar eyni dərəcədə vacib deyillər, bunlardan sarsılmamaq lazımdır (insanı qorxudan bu şeylər deyil, onlar haqqında fikir, rəydir; yanlış olan belə rəylərdir). İnsan hər şəraitdə yaşamağı bacarmalıdır. Ağıllı insan günahı nə başqalarında, nə də özündə axtarar (Epiktetos). Taledən qaçmaq mümkün deyil. Hər günü sanki son gündür kimi yaşamaq, hirsdən, saxtakarlıqdan uzaq durmaq, onlara güc sərf etməmək – budur əxlaqi yetkinlik (M. Avrelius).

"Bütün xalqlar və bütün zamanlar üçün əzəli-əbədi və dəyişməz tək bir qanun olacaq...Bu qanunun sahibi, onu elan edən və tətbiq edən güc Tanrı olacaq. Dövlətin güvənliyi onun ən yaxşı insanlarının müdrikliyinə bağlıdır" (Cicero. Qh). Stoaçılar ənənəvi yunan-barbar, azad insan-kölə münasibətlərinə qarşı çıxırdılar (Aristotel`ə qarşı!); Seneka kölələrin bədənlərinin öz ağalarının mülkiyyətində olduğunu, lakin qəlblərinin özlərinə aid olduğunu, sevgi və ədalətin kölələrə də aid olduğunu deyirdi.